

■ Bahar Bərdəli





# MÜBARİZƏ

*hekayə*

Son günlər Şöhrət müəllim özünü yaman pis hiss edirdi. Elə bil ağırlaşmışdı.

Rahat yeriyə, gəzə bilmirdi. Gözləri şişmiş, ətrafı tuluqlamışdı. Nəfəsini çətin alırdı, hərdən az qalırdı boğulsun. Soyuqlamışdı, ya ürəyində nəsə

baş verirdi, bilmirdi. İndiyə kimi ürəyindən şikayəti olmamışdı. Deyəsən, bu gün hər iki dərd birləşib, onu yıxmaq istəyirdi. Öz sağlamlığı üçün mübarizə etmək, həkimə getmək, dava-dərman almaq, onların rejimlə gündə neçə dəfə qəbulu... Yox, bunlar üçün nə halı vardı, nə də həvəsi.. Yorulmuşdu, bezmişdi bu boz-bulanıq günlərdən. Usanmışdı təkrar, cansıxıcı həyatdan. Hərdən ölmək istəyirdi...

Bir vaxtlarsa mübarizə onun həyat amalına, məqsədinə çevrilmişdi! Necə ürəklə, həvəslə, aramla aparırdı bu mübarizəni! Özü də kimə qarşı! O günlərin hər anı, hər dəqiqəsi, saatı yadındaydı. Son vaxtlar da yaman tez-tez xatırlayırdı o günlərin hadisələrini. Səbəbini heç özü də bilmirdi

* * *

...Onu idarəyə iş icraçısı göndərmişdilər. Ortaboylu, alagözlü, çatmaqaşlı, 30- 35 yaşlarında gözəl bir xanım idi. Şən danışığı, şux zarafatı, şaqraq gülüşləri vardı. Onunla söhbət edəndə hər dərdi-kədəri unudurdun. Direktor Kərimov fürsəti fövtə vermədi. Dərhal onu özünə müavin götürdü. İdarədə bunu təbəssümlə qarşılayanlar da oldu. “Kişinin zövqü var da! Niyə də olmasın?” Amma tezliklə bu fikir, əlüstü təəssürat yox olub getdi. Çünki qız işgüzar, hamıya qarşı diqqətli, qayğıkeş idi. Çox adamın işini təkbaşına görürdü. Adı Gülşən olan bu gözəlin ağıllı, iti gözlərindən heç nə yayınmırdı. İş vaxtının sona çatmasını gözləməyib dağılışanlar indi idarədən getmək istəmirdilər. Çünki bilirdilər ki, Gülşən xanım mütləq nəsə bir tədbir düşünüb, süfrə açacaq. Bundan istifadə edən direktor da öz işlərini görməkdə idi. Deyilənə görə onu yuxarı vəzifəyə aparacaqdılar. Onda şöbə müdiri işləyən Şöhrət əl-ayağa düşmüşdü. Yuxusu ərşə çəkilən kişinin nə gecəsi vardı, nə gündüzü. Böyük arzularla, xəyallarla yaşadığı zamanda, müdir olacağı günü həsrətlə gözlədiyi bir vaxtda bu arzuolunmaz gözəlçə hardan çıxdı, bilmirdi. Nəsə fikirləşmək, bir iş görmək lazım idi. Yoxsa sonra gec olardı

* * *

...Sinəsindən, kürəyindən yapışan küt ağrılar Şöhrətə yataqdan qalxmağa imkan vermirdi. Elə yerindəcə qıvrılıb-açılırdı. Dodaqları qurumuş, dili alışıb-yanırdı. Bir stəkan çaydan-sudan olsaydı... Arvadını səslədi. Evdə kimsə yox idi...

* * *

...Gülşən çay süfrəsi açmışdı. Bütün şirniyyatlardan stolun üstünə düzmüşdü. Novruz bayramı idi. Tort xüsusilə diqqəti cəlb edirdi.

\- Gəlin bu tortun adını “Gülşən” qoyaq. Çünki yiyəsi kimi özü də gözəldir!

Mühəndis Həmidov tortu kəsməyə başladı.

\- Yəqin həm də dadlıdı? - Şamilov da bir tikə götürüb dişlədi, - pəhpəh, adamın ağzında yağ kimi əriyir! Afərin Gülşən xanıma!

Şöhrət müəllim içindən qıvrılırdı. Axır dözmədi, arvadına baxıb göz elədi, yəni ürəyinə salma, iş görürəm! Sonra üz-gözünü turşudub, ciddi halda dedi:

\- Sizdən çox-çox xahiş edirəm, bir də mənim yanımda Gülşən xanımı tərifləməyin. Bu, mənə pis təsir edir. Çünki mən onu... çoxdan... elə gördüyüm gündən ürəkdən...sevirəm...

Birinci Gülşən şaqqıldayıb güldü. Məclisdəkilər də ona qoşuldu. Amma tez də sakitləşdilər. Şöhrət ağlayırdı! Arvadı guya bu söhbəti xoşlamadı və acıq eləyib məclisi tərk elədi. Səhərisi günü uşaqlarını da götürüb atasıgilə getdi. Çox çəkmədi “Şöhrət-Gülşən” dastanı yaranıb dildən-dilə düşdü. Maraqlıydı ki, hamı buna inanırdı. Əlbəttə, təkcə Gülşəndən başqa. Özünü bu söz-sovdan qorumaqda aciz idi. Hərdən üzünə qarşı onu söyürdü də:

\- Sən rəzilsən, alçaqsan, əclafsan!



Heç kimin eşitmədiyini görən Şöhrət gülürdü:

\- Düz deyirsən!

Qız doğrudan da, düz deyirdi. O, hər üsula, əmələ əl atmışdı. Qızı gözdən sala bilmişdi və istəyinə də çox asanlıqla çatmışdı. Direktor gedəndə yerini məhz ona - Şöhrətə verib getmişdi. Şöhrət də qızı müavinlikdən uzaqlaşdırmış, adi icraçı qoymuşdu. İndi burdan da çıxarmaq, ümumiyyətlə, idarədən uzaqlaşdırmaq üçün yollar arayırdı. Yəqin ki, çox çəkməyəcəkdi, buna da nail olacaqdı. Çünki dedi-qodu öz işini görmüşdü. Gülşənin sözünə daha inanan, əhəmiyyət verən yox idi. Mələk cildində şeytan kimi baxırdılar ona.

* * *

...Arvadının evə gəldiyini görüb sevindi.

\- Sara, çaydan, sudan nəyin var? Ürəyim yaman yanır...

\- Sən işə getməmisən? - Arvadı onun sözünü yarıda kəsdi. - Bu vaxtı evdə neynirsən? Ürəyin yanır? Azca ye, azca iç! Dünən harda vurmusan ki, hələ də özünə gəlmirsən? Ölürsən deyəsən? - Ərinin rəngi-ruhunun qapqara qaraldığını görüb bir az da səsini qaldırdı: - Hardaydı məndə o bəxt ki, sənin öldüyünü görəydim. O xoş günü mən də yeyib-içəydim, ha-ha...

\- Ölməzdim, amma sənin bu sözlərin şəksiz məni öldürəcək!

\- Amin, inşallah! Onda icazə ver, bir az da əlavə eləyim.

Kişi yerindən güclə qalxdı. Pencəyini götürüb evdən çıxmağı qənimət bildi. Hara gedəcəyini özü də bilmirdi. Sadəcə evdən uzaqlaşmaq, hava almaq, bir az yüngülləşmək istəyirdi. “Jiquli”ni necə gəldi, hara gəldi, mexaniki sürürdü. Yanından ötən maşınlar siqnal verib keçirdilər. Yanğısı sönmüşdü. Amma qolları gücdən, heydən düşürdü. Dili ağzında böyüyür, dişləri kildlənirdi. Maşını saxladı. Solundakı şüşəni endirdi, arxaya söykəndi. Ürəyi şiddətlə döyünürdü. Ayaqları uyuşmuşdu. Deyəsən qan işləmirdi. Kimisə çağırmaq, onu iş yerinə qədər aparmasını xahiş etmək istədi Bacarmadı

Xatırlayırdı ki, o Gülşənin çörəyini kəsib arvadına, oğlanlarına yedirtmişdi. Böyük oğlu orta məktəbi qurtarandan öz mübarizəsini başlamışdı. Yalnız valideynlərinə qarşı! Çünki müstəqil yaşamaq istəyirdi. Necə vaxtdır evə də gəlmirdi... Harda gecələdiyini bilən də yoxdu. Balaca oğlunu qayınanası aparmışdı. Tək olduğu üçün. Baş məsləhətçisi də yəqin arvadı olmuşdu. O arvadı ki, deyinə-deyinə ömrünü-gününü zəhərləyib, cəhənnəmə çevirmişdi. Bu gün, öldüyü yerdə küçədə qalmağının səbəbkarı da o deyildimi?

* * *

... Gülşəni az maaşlı işə keçirmişdi. Qiymətlərin sürətlə qalxdığı, inflyasiyanın at oynatdığı bir vaxtda onsuz da gecikən, iki-üç aydan bir verilən maaşı bir ay da o gecikdirmişdi. Hamı pulunu alsa da, Gülşənin əmək haqqını saxlamışdılar. - Mühasibatlıqda anlaşılmazlıq olub. Növbəti maaşla birlikdə alarsan, - demişdilər. Növbəti maaşı da, yəqin ki, bir neçə ay gözləməli olacaqdı.

Bütün bunlara rəğmən Gülşən yenə də işıq saçırdı. Sakitcə öz işində-gücündə idi. Bu bahalığın, qıtlığın, gecikən maaşın, sanki ona heç bir dəxli yox idi. Şöhrət müəllim şübhələnməyə başlamışdı. Bu qız nə yeyib-içirdi? Kim onu təmin edirdi belə? Dözmədi. Yoxlamaq qərarına gəldi. Qızı otağına çağırıb tapşırıq verdi:

\- Mən baş idarəyə gedirəm. Qayıdana kimi sən bu sənədləri hazırla. Heç yana

getmə. Tez qayıdıram. Bir saat vaxtın var.

\- Oldu. - Gülşən həmişəki işgüzar görkəmi ilə kağızları götürüb otaqda

işləməyə başladı.

Müdir arxayınlaşıb qızın otağına keçdi. Sumkasından evinin açarlarını götürdü. Tez maşına əyləşib onun evinə yollandı. Bir neçə dəfə bayram günlərində işçilərlə birlikdə bu evdə olmuşdu. Çox isti, rahat, səliqə-sahmanlı, xudmani mənzili vardı Gülşənin.

Birinci soyuducunu açıb baxdı. Ərzaqla dolu idi. Sonra otaqlara göz gəzdirdi.

Hər əşyası, avadanlığı, mebeli yerli-yerində olan mənzildə demək olar ki, heç nə qalmamışdı. Döşəmədə bir neçə qablaşdırılmış bükülü də vardı. Bir tərəfindən açıb baxdı, qabqacaq-idi. Demək, qız evin əşyalarını satmaqla dolanırdı! Kişi bığaltı güldü:

\- Aha! Bəs divar qurtarandan sonra hara gedəcəksən, nə yeyəcəksən, ay xanım?! - Qapını açıb bloku yoxladı. Kimsə görünmürdü. Hazır yığılmış, bükülmüş şeyləri, soyuducuda olan bütün ərzağı götürüb maşına yığdı, tez idarəyə qayıtdı. Açarı qızın sumkasına atıb, öz otağına keçdi. Gülşən yazını qurtarıb onu gözləyirdi.

\- Çox sağ ol! İndi hara istəsən gedə bilərsən! - Qızı gülə-gülə yola saldı.

Bu hadisədən sonra Gülşən on gün işə çıxmadı. Dedilər bərk xəstələnib.

Şöhrət ömründə bu qədər sevinib-gülməmişdi. Yəqin ki, o bir də idarəyə qayıtmaz! - düşünürdü.

Gülşən başqa yerdə iş tapıb idarədən getdi. Şöhrət müəllim bir müddət rahat, asudə nəfəs də aldı. Amma bu çox çəkmədi, idarədə yenə bir pərakəndəlik, özbaşınalıq yarandı. Bir az da bunun üçün mübarizə apardı. Bu da çox çəkmədi. Tez yoruldu. Gücü-qüvvəsi tükənmişdi elə bil. Darıxırdı, özünə yer tapmırdı. Heç bir işi düz getmirdi. Hərdən Gülşənli günlər üçün də darıxırdı. Səmimi gülüşlərini xatırlayırdı. Mübarizə əzmini, güc-qüvvəsini, elə qızın özünə qarşı apardığı müharibənin enerjisini də sanki ondan alırmış! Bəlkə qıza vurulmuşdu?

* * *

...Ürəyi son gücünü toplayıb çırpınmaqdaydı. Təcili yardıma zəng etmək lazım idi. Ancaq olduğu yeri necə başa salacaqdı. Bura hara idi? Cib telefonunu axtardı. Deyəsən evdə qalmışdı. “Lənət şeytana!” Maşının sağından, solundan keçib gedən insanlara baxdı. Danışmağa heyi-halı yox idi. Ürəyi köksündən çıxmaq istəyirdi. Bu qız hardan yadına düşdü? Öz-özünə acıqlansa da, onu da bilirdi ki, bu keçən illər ərzində bir gün də olsa, onu unutmamışdı. Ötəri də olsa, işıqlı təbəssümü ilə gözünün qarşısından hər gün keçib gedirdi... Birdən adamların arasından həmin tanış simanı gördü! Sanki gözlərinə işıq gəldi! Gülşən! Həmin Gülşən idi. Səliqəli geyimi, sadə görkəmi, sakit, bir az da vüqarlı, şahanə yerişi ilə ona tərəf gəlirdi. Əlini açıq pəncərədən çıxardıb yellədi, az qala çığırdı:

-Gülşən! - Səsi içində qırılıb çilikləndi.

Qız onu görmürdü. Maşının üstündən harasa uzaqlara baxırdı. Çox ciddi, qayğılı üzü vardı. işıq saçan təbəssümü yox olmuşdu. Nurlu gözləri kölgələnmişdi. Beləcə, keçib getdi...

Kişi pəncərəyə söykəndi. Nəfəsi getdikcə daralırdı. “Maşının siqnalıynan adamları köməyə çağırmaq!” - Ağlına gələn bu fikirdən sevindi. Əlini siqnalın üstünə qoydu. Küçədən keçənlər kəsilməyən, davamlı səsə maşının ətrafına toplaşdılar. Rulun arxasında halsız sürücünü görüb, “Təcili yardım” çağırdılar. Sonra da çəkilib getdilər.

Ürəyinin döyüntüsü zəifləyirdi. İndi təkcə nəfəsi yox, gözləri də qaralırdı.

...Sürətlə gələn “Təcili yardım” maşını onun “Jiquli”sinin yanında saxladı. İçərisindən ağ xalatlı həkimlərin düşüb ona tərəf gəldiyini görəndə kişi gözlərini yumub dərindən, rahat nəfəs aldı. Bu, onun son nəfəsi idi...